# Knarr PG100.00 PU Dolğu

Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

İki komponentli, poliuretan əsaslı, reaksiya qurumalı dolğudur. Çox yaxşı doldurma və yayılma xüsusiyyətinə malikdir və asanlıqla zımparalana bilir. Möhkəm örtük kimi bütün taxta səthlərə mükəmməl yapışır. Məsamələri doldurmaq və son qat lakları üçün hamar bir səth hazırlamaq üçün qapalı məkanda istifadə olunan hər növ bərk ağac, taxta və mdf səthlərdə istifadə oluna bilər. Eyni zamanda səthi dolduraraq son qat sərfiyyatını azaldır.

## İstifadə olunacaq səthlər

MDF və taxta səthlərdə doldurucu lak olaraq istifadə edilir.

## Fiziki xassələri

| | | |
|---|---|---|
| **Rəng** | | Şəffaf |
| **Qatı maddə miqdarı (həmcsəl)** | ASTM D2697-03 | 42%±2 |
| **Sıxlığı (gr/sm$^3$)** | ASTM D1475-13 | 1.01±0.02 |
| **Özlülüyü (25°C) KU** | ASTM D562-10 | 90±5 |
| **Parıldama nöqtəsi** | ISO 3679 | 35°C±2 |
| **Qarışım ömrü (23°C)** | | 3 saat |
| **Qarışım nisbəti (kütlәcә)** | | 2 vahid A Komp., 1 vahid Knarr PH501.00 B Komp. |
| **İncəldici** | | 5-10% Knarr Poliuretan tiner |

Bütün nəticələr qarışım (A+B) nəticələridir və rəngə görə kiçik fərqliliklər göstərə bilər.

## Səthin hazırlanması

Bütün səthlər təmiz, quru və kirdən təmizlənmiş olmalıdır. Tətbiqdən öncə səth sumbata kağızı ilə qaşınmalı və səth təmizlənməlidir.

## Tətbiq

### Qarışdırma

Məhsul iki komponent olaraq 2 ayrı qabda verilir. Həmişə verilən nisbətlərdə tam vahidi qarışdırın. İstifadə oluna bilәndən artıq materialı qarışdırmayın. Artıq qarışdırılan material potlife müddəti bitəndən sonra istifadəyə yararsız sayılacaq.

- Əsası (Comp A) təmiz mexaniki qarışdırıcı ilə qarışdırın.
- Sonra sərtləşdirici (Comp B) bütün tərkibini əlavə edin və hərtərəfli qarışdırın.

Çox güclü qarışdırmaqdan çəkinin, çünki bu, havanın daxil olub əlavə köpüklənməyə gətirib çıxarır. Bu da zəif tətbiq nəticələrinə səbəb ola bilər.

Əgər tiner lazımdırsa, yalnız iki komponenti qarışdırdıqdan sonra əlavə edin.

Substratın temperaturundan asılı olmayaraq, qarışıq boyanın tövsiyə edilən minimum temperaturu 15 °C-dir. Daha aşağı temperaturlarda müvafiq tətbiq özlülüyünü əldə etmək üçün daha tiner tələb oluna bilər ki, bu da axma müqavimətini aşağı sala və daha gec bərkimə ilə nəticələnə bilər.


**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www. knarrpaints.com

Substratın temperaturu ən azı 10 ° C və havanın şeh nöqtəsindən ən azı 3 ° C yuxarı olmalıdır.
Qapalı yerlərdə boya tətbiq edərkən, tətbiq və quruma zamanı kifayət qədər havalandırmanı təmin edin.
Yerli qaydalara əməl edin. Xüsusi tövsiyə üçün "CMT GROUP" ilə əlaqə saxlayın.

## Tətbiq üsulları

**Havalı sprey üçün dəyərlər**

| | |
|---|---|
| Başlıqdakı təzyiq | 3-5 bar |
| Ucluq ölçüsü | 1.2-1.5 mm |
| Püskürtmə bucağı | 40-80 dərəcə |
| Tinerin miqdarı | 5-10% |

**Fırça/Rulo**

Kəstirmələr və kiçik sahələrdə tətbiq üçün məsləhət görülür. Qeyd olunan film qalınlığında tətbiqetməyə diqqət edilməlidir.

**Tiner**

İncəlmə lazımdırsa, tiner iki komponent qarışdırıldıqdan sonra əlavə edilməlidir. Tövsiyə olunan tiner səviyyəsi qalınlıqdan və şəraitdən asılıdır. Müəyyən hallarda, tinerin göstərilən səviyyəsini aşmaq tələb oluna bilər. Bununla belə, bir qayda olaraq, həddindən artıq incəlmədən qaçın, çünki bu, axma müqavimətinə və daha gec qurumaya səbəb olacaqdır.

## Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **10$^{o}$C** | **23$^{o}$C** | **40$^{o}$C** |
|---|---|---|---|
| **Üst quruma** | 1.5 saat | 30-40 dəq | 15-20 dəq |
| **Sərt quruma** | 3-4 saat | 1.5-2 saat | 1 saat |
| **Tam (sərt) quruma** | 36 saat | 24 saat | 16 saat |

Yuxarıda göstərilmiş məlumatlar qaydalara əməl olunmaqla müəyyən olunmuşdur. Quruma vaxtı film qalınlığına, havalandırmaya, səthdə var olan boya sisteminə, boyanın keçirdiyi əməliyyatlara, mexaniki dayanıqlılığına və qatılmış tiner miqdarına bağlı olaraq arta və ya azala bilər.

## Məhsul uyğunluğu

Boya müxtəlif astar və son qatlarla birlikdə istifadə oluna bilər. Bəziləri aşağıda göstərilmişdir. Daha dəqiq sistemlər üçün şirkətimizlə əlaqə saxlamağınız məsləhət görülür:
Növbəti qat: poliuretan, polyester, akrilik

## Saxlama şərtləri


"CMT Group" MMC
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www. knarrpaints.com

# Knarr PG100.00 PU Dolğu

## Texniki Məlumat Səhifəsi

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (23$^{o}$C-də) 36 aydır.

### Qablaşdırılma şəkli

12 KQ və 3 KQ-lıq A Komponenti və 6 KQ və 1.5 KQ-lıq B Komponenti olaraq istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi

Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər. Bu növ məhsullarda atmosfer şəraitinə və günəş işığından asılı olaraq rəng solması və təbaşirlənmə ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

***Qeyd:*** *"CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---